# İncəsənət və memarlığın inkişafında dil mədəniyyətinin rolu

**Bu il ölkəmizin müstəqilliyini bərpa etməsinin 35-ci ildönümü tamam olacaq. Bu, böyük, əlamətdar hadisədir, dövlətçiliyimizin, uğurlu daxili və xarici siyasətimizin bariz göstəricisidir. Bu illər ərzində Azərbaycan Respublikası çətinliklərə sinə gərmiş, inkişaf etmiş, möhkəmlənmişdir. Bu işdə qüdrətli dövlətçilik ənənəsinin memarı olmuş Ulu Öndər Heydər Əliyevin müdrik, uzaqgörən siyasəti həlledici rol oynamışdır. Azərbaycanın ən çətin durumunda xalqın tələbi ilə özünü xalqa yetirən, siyasi hakimiyyətə qayıdan Ulu Öndər qısa zamanda stabilliyi bərpa etməyə nail oldu, dayanıqlı inkişafımızın əsası qoyuldu. Ulu Öndərin müdrik dövlətçilik ənənəsini uğurla davam etdirən Prezident İlham Əliyev bu nailiyyətləri dəfələrlə inkişaf etdirdi, ölkəmizin ərazi bütövlüyü təmin olundu, Azərbaycan dünyada qüdrətli söz sahibinə çevrildi.**



Əlbəttə, bu nailiyyətlərin əsasında vətənpərvərlik, milli özünüdərk hissi dayanır. Çünki milli dəyərləri qiymətləndirmədən həqiqi milli suverenlik qazanmaq və onu inkişaf etdirmək mümkün deyil. Bu sırada milli dil öncül mövqedə dayanır. Milli şüurun, milli kimliyin dərki mənəvi bütövlüyün, vətən sevgisinin təməl daşıdır. Azərbaycanın bütün sahələrdəki gücü, dinamik inkişafı xalqın milli özünüdərki, ana dilini qoruyub saxlaması və inkişaf etdirməsi ilə qırılmaz surətdə bağlıdır.

Ulu Öndər Azərbaycan dilinin inkişafına, onun saflığına böyük önəm vermişdir. Heydər Əliyev 2001-ci il avqustun 9-da 1 avqust tarixinin Azərbaycan Respublikasında Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü kimi qeyd olunması haqqında Fərman imzalamışdır. O zamandan etibarən hər il bu bayram respublikamızda geniş qeyd olunur.

3 noyabr 2025-ci ildə AMEA-nın 80 illiyi münasibəti ilə keçirilən yığıncaqda Prezident İlham Əliyev demişdir: "Azərbaycan dili çox zəngin dildir. Bu gün 50 milyondan çox insan üçün Azərbaycan dili ana dilidir. Ancaq təmiz, saf, ədəbi Azərbaycan dilinin qoruyucuları bizik - müstəqil Azərbaycan dövləti".

Bu sözlər Azərbaycan ziyalısının, Azərbaycan aliminin qarşısında böyük vəzifələr qoyur. Bu, xüsusilə humanitar və ictimai elmləri təmsil edən alimlərimizə aiddir. Biz dilimizi inkişaf etdirməli, onu yad təsirlərdən qorumalıyıq. Qalib Azərbaycan əsgəri vətənini qoruyan kimi, təəssübkeş Azərbaycan ziyalısı da dilini qorumalıdır. Bu gün bu məsələ prioritet vəzifə kimi alimlərimizin qarşısında dayanır.

Ana dilimizin saflığı mühüm məsələlərdən biridir. Prezident İlham Əliyev 5 yanvar 2026-cı ildə yerli televiziya kanallarına müsahibə verərkən Azərbaycan dilinin saflığı barədə belə demişdir: "Xarici kəlmələr dilimizi pozur, zənginləşdirmir və milli kimliyimizi də sarsıdır, damcı-damcı, yavaş-yavaş. Bəlkə də özümüz heç buna fikir vermirik, damcı-damcı sarsıdır. Dil əldən gedəndən sonra, yaxud da ki, pozulandan sonra, ya da başqa dilə tamamilə uyğunlaşandan sonra onda milli kimlik də gedəcək, ondan sonra dövlətçilik də gedəcək, ondan sonra, Allah eləməsin, ölkəmiz də, necə deyərlər, böyük fəlakətlə üzləşə bilər. Ona görə Azərbaycan dilini qorumaq hər birimizin vəzifəsidir. Bunu mən tam əminliklə deyirəm və hamını bu mübarizəyə dəvət edirəm. Nə üçün mübarizə? Çünki bugünkü dünyada sən qapalı məkanda yaşaya bilməzsən. Sən dəmir pərdə ilə özünü bağlaya bilməzsən - istər-istəməz təmaslar, ondan sonra internet resursları, sosial şəbəkələr və sair. İstər-istəməz xarici kəlmələr daxil olur və sonra orada həzm olunur və ondan sonra istifadə edilir. Mən bunun əleyhinəyəm".

Proqram xarakterli bu sözlər hər bir Azərbaycan ziyalısı üçün bir mesaj, örnək olmalıdır. Çünki bu çağırışların ön cərgəsində məhz ziyalılar dayanır. Dilimizin saflığı uğrunda mübarizədə onların öhdəsinə düşən vəzifələr daha böyükdür. Milli əqidəni milli ziyalı formalaşdırır, həm də məhz dil vasitəsilə formalaşdırır. Əgər dil qüsurlu olarsa, onda milli düşüncə də istənilən səviyyədə olmaz. Ataların yaxşı bir deyimi var: "Gözəllik ondur, doqquzu dondur". Bu fikir sanki dil mədəniyyətinin boyuna biçilib. Mükəmməl fikri insanlara çatdırmaq üçün mükəmməl dil mədəniyyəti tələb olunur. Hətta yaxşı, unikal fikir belə, əgər yöndəmsiz, qəlib, rəndə görməmiş sözlərlə ifadə olunarsa, onun qiyməti, kəsəri itib-batar, ürəklərə, zehinlərə yol tapa bilməz.

Ana dilimizin saflığı təkcə dilçilərin, ədəbiyyatşünasların vəzifəsi deyil. Bu, bizim hər birimizin vəzifəsidir. Bəzən belə bir etinasız, biganə sözlərlə qarşılaşırsan: "Axı dil memarların, sənətşünasların nəyinə gərəkdir?". Kökündən yanlış olan bu fikirlə mübarizə aparmaq məhz elə memarların, sənətşünasların öhdəsinə düşür. Unutmayaq ki, sənətşünaslıq humanitar elmin bir sahəsidir. Digər sahələrdə, misal üçün, ədəbiyyatşünaslıqda olduğu kimi, onun da əsas ifadə vasitəsi məhz dildir. Tamamilə aydındır ki, mükəmməl, səlis elmi dil olmadan heç bir əsər tam olaraq uğur qazana bilməz. Elə buna görə də digər alimlərimizlə yanaşı, memar və sənətşünaslar da Azərbaycan dilini inkişaf etdirməli, onun saflığının keşiyində durmalıdırlar.

AMEA-nın Memarlıq və İncəsənət İnstitutunda Azərbaycan dilinin geniş imkanlarından yararlanmaqla yüksək səviyyədə ədəbi və elmi üslubda tədqiqat işləri aparılır. Bədii sənətin istər tarixinin, istərsə də nəzəriyyəsinin araşdırılmasında böyük söz mədəniyyətinə hər zaman ehtiyac vardır. Son dövrlərdə İnstitutda işıq üzü görmüş nəşrlərin dil-üslub xüsusiyyətləri nəzərə çarpacaq dərəcədə təkmilləşmişdir. Lakin böyük uğurlardan danışmaq hesab edirik ki, hələ tezdir. Dil mədəniyyəti sahəsindəki prinsipial mövqeyimizi gələcəkdə də davam etdirməyimiz tələb olunur.

Məlum olduğu kimi, dilin inkişaf etməsinin əsas şərtlərindən biri onun lüğət tərkibinin mükəmməl olmasıdır. Bu baxımdan sahə terminoloji nəşrlərinin böyük əhəmiyyəti vardır. Tarixə nəzər salsaq, görərik ki, AMEA-nın Memarlıq və İncəsənət İnstitutunda vaxtilə bu sahədə müəyyən işlər görülmüşdür. Hələ ötən əsrin 50-ci illərində institutda müəllif kollektivi tərəfindən inşaat, memarlıq və təsviri sənət terminləri lüğəti hazırlanmışdı. Nisbətən kiçik olmasına baxmayaraq, o dövr üçün bu nəşr böyük hadisə sayıla bilərdi. Sonralar, artıq 90-cı illərdə institutumuzun əməkdaşı, uzun müddət indiki "Musiqi folkloru" şöbəsində çalışmış sənətşünaslıq üzrə fəlsəfə doktoru Əfruz Məmmədova musiqi terminləri lüğəti hazırlamışdı. Belə faktlardan yenə də sadalamaq olar. Lakin indiki zamanda, mövcud reallıqlar və çağırışlar işığında institut kollektivinin qarşısında duran əsas vəzifələrdən biri memarlıq və incəsənət sahəsində yeni, daha geniş, dövrlə səsləşən, müasir elmmetrik bazaların və rəqəmsal elmin, süni intellekt əsrinin tələblərinə cavab verən terminlər lüğətinin hazırlanmasıdır. Artıq bu sahədə işlərə başlanılmışdır. Belə ki, 2026-2030-cu illər üçün institutun perspektiv fəaliyyət planında memarlıq terminləri lüğətinin hazırlanması nəzərdə tutulmuşdur. Hazırda bu istiqamətdə məqsədyönlü işlər aparılır.

Dil həyatdır, varlıqdır, milli kimlikdir. Dil sərvətdir, nemətdir. Dil həm də böyük mədəniyyətdir. Mədəniyyətsiz dil olmadığı kimi, dilsiz də mədəniyyət yoxdur. Dil həm də gələcəkdir, qüdrətli, inkişaf edən Azərbaycanımızın gələcəyidir. Gələcəyimizi qorumaq hər birimizin müqəddəs borcudur. İstər-istəməz Xalq şairi Bəxtiyar Vahabzadənin məşhur "Mənim ana dilim" şeirindəki əbədiyaşar misralar yada düşür:

*Mənim ana dilim, mənim kimliyim,*
*Pasportum, özümə öz hakimliyim...*

Biz öz "hakimliyimizi" hər zaman qorumuşuq və bundan sonra da qoruyacağıq. Azərbaycan aliminin dilimizi qoruması, onun saflığı uğrunda çalışması günümüzün prioritet vəzifələrindən biridir. Hər birimiz bu vacib işdə səfərbər olmalıyıq.

**Ərtegin SALAMZADƏ**
**AMEA-nın Memarlıq və İncəsənət İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü**